Heydər Əliyev

siyasi dühası Azərbaycanın müasir simasını müəyyənləşdirib

Ulu öndər Heydər Əliyevin vəfatından 21 il ötür. Lakin dahi şəxsiyyət xalqa, millətə, Vətənə xidmətləri ilə hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaldıb. Mənalı həyatının düz 60 ilini Azərbaycanın, xalqımızın bugünü və sabahı ilə yaşamış ümummilli liderin Vətənimiz qarşısında misilsiz xidmətlərindən cild-cild əsərlər yazılsa, yenə də azdır. Bu mənalı ömrün son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev amili, Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik. Öz milli liderimizin vəsiyyətinə sadiqik".

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndərin adı ilə bağlıdır. Müstəqilliyimizin möhkəmləndirilməsi, qorunub saxlanılması, milli şüurun dirçəlişində əsaslı dönüş yaradılması, ordu quruculuğu, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası, ölkədə genişmiqyaslı islahatların aparılması və hüquqi, sivil dövlət quruculuğunun əsasının qoyulması müdrik şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısında müstəsna xidmətlərindəndir.

Ötən əsrin 90-cı illərində Azərbaycanı çox ağır, böhranlı vəziyyətdən, məşəqqətli günlərdən, az qala tarixdən silinmək təhlükəsindən ulu öndər xilas etdi. Xalqımız düçar olduğu ağır bəlalardan xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Azərbaycan xalqı müdrik şəxsiyyətin siyasi kursuna, ideallarına sadiqdir. Məhz bu baxımdan Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən Ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdi.

Müasir müstəqil Azərbaycan dövlətinin yaradıcısı, dünya miqyaslı siyasi xadim Heydər Əliyev xalqımızın yaddaşında qurucu, xilaskar, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədi qalıb. Dahi liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra hüquqi, sivil, demokratik dövlət quruculuğu istiqamətində qətiyyətli addımlar atıldı. Ümummilli lider 1970-1980-ci illərdə sosial-iqtisadi böhran keçirən Azərbaycanı keçmiş İttifaqın qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

Heydər Əliyevin harada işləməsindən asılı olmayaraq, qəlbi daim Azərbaycanla, milləti, xalqı, Vətəni ilə döyünüb. Ulu öndər azərbaycançılıq ideyasını hər şeydən üstün tutmuş, hətta sərt sovet rejimində də bu amalla yaşamışdır. O, sovet rejiminin ölkəmizə qarşı haqsızlığına, ədalətsiz mövqeyinə, qəddarlığına cəsarətlə cavab vermişdir. Yəqin ki, 1990-cı il 20 Yanvar hadisələrini heç kim unutmayıb və unutmaq olmaz da! Həmin vaxt Sovet ordusunun Azərbaycanda törətdiyi qanlı faciənin ertəsi gün Heydər Əliyev ailə üzvləri ilə birlikdə həyatını təhlükə altında qoyaraq Moskvada Azərbaycan Nümayəndəliyə gedərək 20 Yanvar hadisələrinin günahkarlarını cəsarətlə kəskin tənqid etmiş, bu işdə sovet rejimini günahlandırmış və etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından istefa vermişdir.

Bu gün hüquqi, demokratik dövlət quruculuğunda böyük nailiyyətlər qazanmış müstəqil Azərbaycan təkcə regionda deyil, dünyada ictimai-siyasi həyatın bütün sahələrində tərəqqiyə nail olmuş bir ölkə kimi tanınır. Hər bir azərbaycanlının qəlbində yüksək qürur və iftixar hissi doğuran bu nailiyyətlər, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və dönməzliyinin təmin edilməsi ümummilli lider Heydər Əliyevin apardığı gərgin mübarizənin, əzəmətli quruculuq işlərinin məntiqi nəticəsidir.

1993-cü ilin may-iyununda ölkədə baş verən hadisələr barəsində çox yazılıb. Hər birimiz bu hadisələrin canlı şahidiyik və yetişən gənc nəsil də Heydər Əliyev irsi ilə yaxından tanış olarkən, bu hadisələrin yaranma səbəbləri ilə yaxından bələd olur. Bütün bunları bir daha xatırladaraq demək istəyirəm ki, həmin dövrdə hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı bu ağır bəladan xilas, nicat yolunu ulu öndər Heydər Əliyevdə gördü və ümummilli liderin hakimiyyətə qayıdışı tələbi ilə ayağa qalxdı. Son dərəcə çıxılmaz vəziyyətə düşmüş Azərbaycanın o zamankı rəhbərliyində təmsil olunan şəxslər də respublikamızı qarşılaşdığı ağır böhrandan xilas etmək üçün müdrik şəxsiyyəti rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildikdən, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladıqdan sonra müstəqil Azərbaycan yeni mərhələyə qədəm qoydu. Həmin vaxtdan etibarən Azərbaycanda hüquqi, sivil, demokratik dövlət quruculuğu prioritet olaraq müəyyənləşdirildi.

Müdrik şəxsiyyət mütəmadi olaraq, haqq-ədalət ideyalarının, qanunçuluğun möhkəmləndirilməsinin, hüquqi, sivil, demokratik dövlətin qurulmasının ölkəmizin gələcək inkişafı və beynəlxalq aləmə inteqrasiyasında böyük əhəmiyyətə malik olduğunu xüsusi vurğulayaraq deyirdi ki, xalq da, ədalət də, görünür ki, Allah da haqqın, ədalətin tərəfindədir.

Qanunun aliliyindən danışarkən ulu öndərin müstəqil Azərbaycanın Konstitusiyasının hazırlanmasındakı rolunu xüsusi qeyd etmək lazımdır. 1995-ci il noyabrın 12-də referendum yolu ilə məhz Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilib. Heydər Əliyev tərəfindən əfvetmə institutu bərpa edilməklə, vətəndaşların dövlətə, onun rəhbərinə güveni, ümid və etimadı artıb.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə bütün sahələr kimi, ədliyyə orqanları da diqqətdən kənarda qalmamış, bu qurumlara xüsusi diqqət və qayğı göstərilmişdi. Bu qayğının sayəsində Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri yenidən müəyyənləşdirilərək təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmiş, müasir tələblərə cavab verən qanunvericilik aktları qəbul edilərək müvafiq strukturdəyişiklikləri aparılmışdır. Məlum olduğu kimi, Ədliyyə Nazirliyi 1970-ci il oktyabrın 27-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə təsis olunmuş və fəaliyyəti təmin edilmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən və xalqın təkidi ilə Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra əsaslı məhkəmə-hüquq islahatlarının aparılmasının zəruriliyi diqqət mərkəzində saxlanılmış və tarixi şəxsiyyətin təşəbbüsü ilə qabaqcıl dövlətlərin təcrübəsinə əsaslanaraq ədliyyə yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Aparılan məqsədyönlü islahatlar nəticəsində nazirliyin səlahiyyətləri genişlənmiş və cəmiyyətdə nüfuzu artmışdı. Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilib.

Ümummilli liderin ədliyyə sistemində apardığı islahatlar zamanı notariat və qeydiyyat orqanları da diqqətdən kənarda qalmamışdır. Bu orqanlarda da mütəmadi olaraq əsaslı islahatlar və təkmilləşdirmələr həyata keçirilmiş, hüquqi baza yaradılması istiqamətində qanunvericilik aktları, o cümlədən Ailə Məcəlləsi, "Notariat haqında" qanun qəbul edilmişdir. Bu diqqət və qayğının bariz nümunəsi isə Heydər Əliyevin 6 mart 2000-ci il tarixli Fərmanı ilə qeydiyyat orqanlarının idarəçiliyinin təkmilləşdirilərək bu orqanların ikili tabeçiliyinə son qoyulması və onların Ədliyyə Nazirliyinin strukturunun tərkib hissəsinə daxil edilməsidir.

Hüquqi dövlətin təməl sütunlarından biri məhkəmələrdir. Ümummilli liderin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatı nəticəsində 2000-ci ildən etibarən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlamışdır. Eyni zamanda Azərbaycan Konstitusiya Məhkəməsinin təsis edilməsi və fəaliyyəti də ulu öndərin dövlətçiliyin möhkəmləndirilməsi və inkişafındakı zəngin təcrübəsinin nəticəsində mümkün olmuşdur. Bu təsisatın yaradılması və müəyyən səlahiyyətlər verilməsi hüquqi dövlət quruculuğunda, o cümlədən Konstitusiyanın aliliyinin təmin edilməsində önəmli yer tutur.

Ulu öndərin ədliyyə orqanları ilə bağlı apardığı islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi" və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanı və qəbul edilmiş digər qanunvericilik aktları bunu bir daha təsdiq edir. İslahatlar bu gün də davam etdirilir.

Bu gün Azərbaycan dinamik inkişaf edən, modernləşən, beynəlxalq aləmdə reytinqi gündəngünə artan qalib dövlət kimi tanınır. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs Azərbaycanın dünya birliyindəki mövqeyini daha da möhkəmləndirib və nüfuzunu artırıb. Bu siyasətin ən pik nöqtəsi, dörd il əvvəl Ermənistan üzərində qazandığımız tarixi Qələbə xalqımızın yaddaşına əbədi həkk olundu. Otuz il düşmənlərimizin işğalı altında qalmış torpaqlarımız azad olundu, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa edildi. Bu, təkcə Ermənistan üzərində yox, həm də ona havadarlıq edən dövlətlər, ölkəmizə qarşı qərəzli olan, ikili siyasətdən əl çəkməyən bəzi beynəlxalq təşkilatlar üzərində də qazanılmış tarixi Qələbə idi.

Otuz il ərzində BMT Təhlükəsizlik Şurasının, eləcə də digər nüfuzlu beynəlxalq təşkilatların həyata keçirə bilmədikləri qətnamələri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz ordumuz 44 gün ərzində reallaşdırdı. Bu şanlı Zəfərin və hazırda Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin, güclü, qüdrətli dövlət kimi tanınmasının əsasını ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs təşkil edir. Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən bu siyasət Azərbaycanın dünyadakı nüfuzunu daha da yüksəldir. Ulu öndər Heydər Əliyevin 21 il əvvəl xalqa müraciəti zamanı səsləndirdiyi "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikri bu gün hər addımda özünü açıq şəkildə büruzə verir. Bu, ulu öndərin uzaqgörənliyinin və müdrikliyinin bariz nümunəsidir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirdi. Ulu öndərin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması idi. Müdrik şəxsiyyət böyük əminliklə, uzagörənliklə torpaqlarımızın işğaldan azad olunacağını və soydaşlarımızın öz yurd-yuvalarına, dədə-baba torpaqlarına qayıdacaqlarını bildirirdi. Bu arzu artıq həqiqətdir. Ulu öndərin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu arzunu reallığa çevirməklə Ata vəsiyyətini yerinə yetirdi.

Səadət İSMAYILOVA,
Ədliyyə Nazirliyi Nərimanov rayonu Qeydiyyat şöbəsinin rəisi, hüquq üzrə fəlsəfə doktoru.